**UOT: (070,49)**
https://doi.org/10.59849/2409-4838.2025.4.107

# AZƏRBAYCAN ÇİN GEOSİYASƏTİ ÇOXQÜTBLÜ DÜNYA NİZAMINDA

**Aytəkin Əli qızı Zeynalova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
phd.aytekinzeynalova@gmail.com

*Bu məqalədə Azərbaycan ilə Çin arasında mövcud olan strateji tərəfdaşlığın çoxqütblü beynəlxalq münasibətlər sistemindəki funksional rolu təhlil edilir. Təhlil 2025-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfəri və bu səfər çərçivəsində imzalanmış mühüm strateji sənədlərin analizi üzərindən aparılmışdır. Əldə olunan elmi nəticəyə əsasən, Azərbaycan–Çin münasibətləri artıq sadəcə ikitərəfli əməkdaşlıq çərçivəsini aşaraq qlobal güc balansında institusional və normativ əhəmiyyət daşıyan modelə çevrilmişdir. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq bu münasibətlər sinerji yaradan çoxtərəfli uyğunlaşma modeli kimi interpretasiya olunur. Tətbiqi əhəmiyyəti baxımından isə bu münasibətlər enerji təhlükəsizliyi, nəqliyyat-logistika, bərpa olunan enerji, humanitar diplomatiya və beynəlxalq hüququn aliliyi kimi sahələrdə davamlı əməkdaşlıq platforması formalaşdırır. Çin və Azərbaycanın qarşılıqlı şəkildə ərazi bütövlüyünü dəstəkləməsi və çoxtərəfli diplomatiyada eyni mövqe tutması bu əlaqələrin dərinliyini və sabitliyini təmin edən əsas dayaq nöqtəsidir.*

***Açar sözlər:*** *Çoxqütblü, dünya nizamı, Birgə Bəyənnamə, Çin, Azərbaycan*

## GİRİŞ

Müasir dövrün beynəlxalq münasibətlər sistemi sürətlə dəyişən geosiyasi proseslərin və qlobal güc balansının yenidən qurulduğu bir mərhələyə daxil olmuşdur. Xüsusilə, Qərb yönümlü unipolyar sistemin zəifləməsi və yeni güc mərkəzlərinin – başda Çin olmaqla – Avrasiya məkanında önə çıxması, yeni çoxqütblü dünya düzəninin formalaşmasına səbəb olmuşdur. Bu kontekstdə, dövlətlərarası əməkdaşlıq sadəcə iqtisadi rasionallıq çərçivəsində deyil, eyni zamanda normativ, diplomatik və geostrateji faktorlar əsasında yenidən strukturlaşdırılır. Belə bir şəraitdə Azərbaycan–Çin münasibətləri həm regional, həm də qlobal kontekstdə strateji əhəmiyyət daşıyan unikal tərəfdaşlıq modelinə çevrilməkdədir.

Azərbaycan Respublikasının son illərdə yürütdüyü çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu, ölkənin geosiyasi reallıqlarını nəzərə alan praqmatik yanaşmaya əsaslanır. Bu siyasət çərçivəsində Azərbaycan, həm Qərblə, həm də Şərqlə tərəfdaşlıq münasibətlərini eyni dərəcədə inkişaf etdirmək, beynəlxalq hüquqa və çoxtərəfli diplomatiyaya əsaslanan yanaşmaları təşviq etmək kimi məqsədlər güdür. Bu baxımdan, Çin Xalq Respublikası ilə münasibətlər Azərbaycanın Asiya istiqamətində xarici siyasətinin mühüm sütunlarından birinə çevrilmişdir. Xüsusilə 2025-ci ildə Prezident İlham Əliyevin Çinə etdiyi dövlət səfəri və bu səfər çərçivəsində imzalanan strateji sənədlər, iki ölkə arasında əlaqələrin dərinləşməsi və yeni mərhələyə keçməsi baxımından dönüş nöqtəsi hesab olunur.

Çin isə qlobal iqtisadiyyatın və siyasətin əsas faktorlarından biri olaraq, "Bir kəmər, bir yol" təşəbbüsü vasitəsilə Avrasiya coğrafiyasında genişlənmə siyasətini həyata keçirir. Bu təşəbbüs, yalnız infrastruktur layihələri ilə məhdudlaşmır, eyni zamanda diplomatik, mədəni və təhlükəsizlik sahələrində də yeni sinerji imkanları yaradır. Azərbaycanın strateji-coğrafi yerləşməsi, zəngin enerji resursları, inkişaf etmiş nəqliyyat-logistika infrastrukturu və sabit siyasi mühiti, ölkəni bu təşəbbüsün əsas tərəfdaşlarından birinə çevirir. Bundan əlavə, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan

və sülhə çağıran diplomatik ritorikası, Çinin xarici siyasət strategiyası ilə paralellər təşkil edir. Bu amillər tərəflər arasında əməkdaşlığın struktur və normativ əsaslarını möhkəmləndirir.

Elmi baxımdan əhəmiyyətli olan odur ki, Azərbaycan–Çin münasibətləri təkcə iqtisadi məntiq və qarşılıqlı fayda prinsipinə deyil, həm də normativ uyğunlaşma, institusional tərəfdaşlıq və çoxtərəfli diplomatik sinxronluq kimi amillərə əsaslanır. Məsələn, BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalarda iki ölkənin bir-birini dəstəkləməsi və ortaq siyasi mövqeləri, bu əlaqələrin yalnız taktiki deyil, həm də strateji xarakter daşıdığını göstərir. Azərbaycanın “vahid Çin” prinsipinə verdiyi dəstək, Pekinin isə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə birmənalı dəstəyi bu normativ əsasları daha da gücləndirir.

Əməkdaşlığın praktiki göstəriciləri də diqqətəlayiqdir. Xüsusilə enerji təhlükəsizliyi, bərpa olunan enerji mənbələri, nəqliyyat və rəqəmsal infrastrukturlar sahəsində həyata keçirilən layihələr, bu əlaqələrin təkcə diplomatik səviyyədə qalmadığını, həm də real iqtisadi və texnoloji sinerji yaratdığını sübut edir. 2025-ci ildə imzalanmış “Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat” və digər sənədlər bu baxımdan əməkdaşlığın hüquqi-institusional bazasını formalaşdırmaqla yanaşı, həm də tərəflər arasında qarşılıqlı etimadın ən yüksək səviyyəyə çatdığını nümayiş etdirir.

Məqalənin əsas məqsədi Azərbaycan–Çin münasibətlərinin elmi əsaslarla təhlilinə zəmin yaratmaqdır. Məqalənin növbəti hissələrində bu münasibətlərin siyasi, iqtisadi, diplomatik və mədəni komponentləri daha ətraflı şəkildə araşdırılacaq və onların çoxqütblü beynəlxalq nizam çərçivəsində hansı strateji funksiyaları yerinə yetirdiyi üzərində dayanılacaqdır. Azərbaycan və Çin arasında əməkdaşlıq nümunəsi, normativ diplomatiya və qlobal idarəetmə modelləri baxımından da tədqiqatçılar üçün yeni empirik baza təqdim edir. Bu baxımdan, məqalə təkcə siyasi analiz deyil, həm də beynəlxalq münasibətlər nəzəriyyəsində yeni yanaşmaların formalaşdırılmasına töhfə vermə potensialına malikdir.

**ƏSAS HİSSƏ**

22 aprel 2025-ci ildə Prezident İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri etdi. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Asiya coğrafiyasının ən böyük dövlətlərindən olan Çinlə münasibətlərin dərinləşdirilməsi istiqamətində intensiv addımlar atır. Əldə olunan real nəticələr isə ondan ibarətdir ki, bu gün rəsmi Pekin ölkəmizin Cənubi Qafqaz regionunun lider dövləti olduğunu görür və bunu yetərincə dəyərləndirir və məhz bunun nəticəsi olaraq da Azərbaycan və Çin istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində kifayət qədər yüksək və etibarlı əməkdaşlıq səviyyəsi nümayiş etdirir, regional və qlobal mövzularda vahid mövqe ortaya qoyur, ikitərəfli münasibətlərin doğurduğu potensial imkanlardan maksimum yararlanmağa çalışırlar. Dünya düzənində baş verən dəyişikliklər beynəlxalq münasibətlər sistemində də öz izlərini qoymaqdadır. Xüsusən qlobal nəqliyyat və enerji layihələri üçün yaranmış təhdidlər hər bir dövləti etibarlı sözü ilə əməli üst üstə düşən tərəfdaş axtarışına məcbur edir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət isə hər zaman praqmatikliyi ilə seçilib və bu siyasət daha etibarlı, daha sərfəli, daha təhlükəsiz əməkdaşlıq modeli ortaya qoyur. Məhz bu səbəbdən də dünya liderləri artıq Azərbaycanı sözünə dəyər verən dövlət kimi qəbul edir, Prezident İlham Əliyevə sözü ilə əməli bir olan lider kimi yanaşır, ona inanır və etibar edirlər. Lakin onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, bu inam və etibar həm də real imkanlara, tərəflərin potensial, siyasi, iqtisadi, konkret enerji, nəqliyyat gücünə söykənir.

Azərbaycana gəlincə, ölkəmizin mövqeyi, xüsusən də Şərq, Qərb və Şimal, Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşməsi, üstəlik rəsmi Bakının istər enerji, istərsə də nəqliyyat sektorunda ortaya qoyduğu real imkanlar, yaratdığı güclü infrastruktur Çin kimi super güclərin diqqətini cəlb etməyə bilməz. Çin də daxil olmaqla bəlli mərkəzlər həmin imkanlardan yararlanmaqla dün-

yaya çıxış əldə etmək, qlobal bazarlarda layiqli yer tutmağa, bir sözlə, regional və qlobal iqtisadi inteqrasiyanı gücləndirməyə çalışırlar. Çin Xalq Respublikasının Sədri Si Tsinpin və Prezident İlham Əliyevin nümayəndə heyətlərinin iştirakı ilə baş tutan geniş tərkibli görüşündə iki ölkənin strateji əlaqələri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə xüsusi toxunuldu. Liderlər siyasi dialoq və geostrateji mövzularda tam anlaşmanın mövcud olduğunu məmnunluqla vurğuladılar [4]. Çin Azərbaycanın qarşılıqlı fəaliyyət və etimad tədbirləri müşavirəsinə sədrliyini rəğbətlə qarşılayır. Bundan başqa, Azərbaycan və Çin hər zaman bir-birinin ərazi bütövlüyü və suverenliyini dəstəkləyir. Rəsmi Bakı da öz növbəsində vahid Çin siyasətini müdafiə edir və Tayvanda keçirilən seçkiləri tanımadığını bildirir. Həmçinin tərəflər terrorizm, ekstremizm və separatizmə qarşı birgə mübarizə sahəsində də uğurlar qazandığını diqqətə çatdırırlar. İki ölkə liderinin imzaladığı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında birgə bəyanat isə qarşılıqlı münasibətləri yeni müstəviyə daşıyacaq. 18 benddən ibarət bəyanatın əvvəlində vurğulanır ki, hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirir. Liderlər qarşılıqlı siyasi etimadı möhkəmləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edirlər [4].

Sənədin bəndlərinin əsas istiqamətləri bunlardır:

- Siyasi – diplomatik;
- İqtisadi – ticari;
- Enerji və nəqliyyat;
- Elm və təhsil;
- Beynəlxalq fəaliyyət;
- Yeni çağırışlar.

Birgə bəyanatın bəndləri sırasında beynəlxalq əməkdaşlıq və qlobal təşəbbüslərin də yer aldığını əsas götürsək, gələcəkdə Bakı və Pekin arasında bütün sahələrdə köklü iş birliyinin qurulacağını elə indidən söyləmək olar.

Beləliklə, Prezidentin dövlət səfəri çərçivəsində birgə bəyanat da daxil olmaqla imzalanan 20-dən çox sənəd Azərbaycan Çin əlaqələrinin gələcək prioritetlərinə tam aydınlıq gətirir, bir növ Bakı və Pekin üçün əməkdaşlığın möhkəmləndirilməsinin yol xəritəsi rolunu oynayır. Sənədlərin müxtəlif sahələri əhatə etməsi isə qarşılıqlı təmasları gücləndirmək yolunda ciddi potensialın mövcud olduğunu göstərir. Xüsusən də iki ölkə vətəndaşları üçün viza rejiminin ləğv olunması və tərəflərin humanitar minatəmizləmə sahəsində əməkdaşlıq etmək haqqında razılığı münasibətlərin hansı səviyyəyə daşındığını real şəkildə ortaya qoyur. Bu əməkdaşlıq nəticəsində eyni zamanda mədəniyyət, əqli mülkiyyət, yaşıl enerji, ekologiya, sənaye, ticarət, kosmik əməkdaşlıq, media və digər istiqamətlər üzrə də təmas hədəfləri müəyyənləşdirildi.

Azərbaycan Çin Xalq Respublikasının müstəqillik mübarizəsinə sayğı ilə yanaşır və Çinin istinad etdiyi dəyərləri bölüşür. 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulmasından etibarən Pekin də ölkəmizin suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edir. Bu yanaşma beynəlxalq fəaliyyət strategiyasına tam uyğundur və hər iki ölkə xarici siyasətində həmin strategiyaya söykənir. Məsələn, Azərbaycan istəyir ki, ölkəmizin qarşılıqlı münasibətlərdə üstünlük verdiyi dəyərlər beynəlxalq qurumların da fəaliyyət prinsipinə çevrilsin və onlar öz işlərini dünyada sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq, həmçinin hegemonluğa və güc siyasətinə qarşı bəşəriyyətin ümumi dəyərlərinin təşviqi istiqamətində qursunlar. Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq məsələlərdə rolunun artırılması, həqiqi çoxtərəflilik, beynəlxalq hüquq, dünya nizamının birgə dəstəklənməsi də ölkəmizin ortaya qoyduğu gələcək konsepsiyasıdır. Çin də

siyasi kursunda bu mövqeyi, bu konsepsiyanı bölüşür. Azərbaycan Çin əlaqələrinin gələcək inkişaf perspektivləri Pekində imzalanan birgə bəyanatın prinsipləri əsasında müəyyən ediləcək əməkdaşlığın inkişaf istiqamətlərinə Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə verdiyi müsahibəsində Çin paytaxtında bu ölkənin Dövlət Şurasının Baş naziri Li Keçyan Litian və daha sonra Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşlərdə toxundu. Prezidentimiz bildirdi ki, Azərbaycan Çin münasibətləri artıq özünün ən yüksək inkişaf mərhələsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qalxır. Hərtərəfli strateji tərəfdaşlığın təməli isə 2024-cü il iyulun 3-də Astanada qəbul olunan Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə Bəyannamə ilə qoyuldu [7]. Liderlər birgə bəyannamənin qəbulundan öncə keçirdikləri görüşdə Çin-Azərbaycan əlaqələrinin səmimiyyətə və qarşılıqlı ehtimada əsaslandığını bildirmişdilər. Tərəflər həmin sənədə əsasən razılaşdılar ki, siyasi əməkdaşlıq bundan sonra da gücləndirilsin və daha da genişləndirilsin. Beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyət möhkəmləndirilsin. İki ölkənin ümumi maraqları birlikdə müdafiə olunsun, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyəti birgə təşviq edilsin [13, s. 8].

Prezident İlham Əliyev Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində də ümumi maraqların müəyyən edilməsində Çin rəhbəri ilə keçirdiyi mütəmadi görüşlərin mühüm rol oynadığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev: "Sonuncu dəfə biz iyul ayında Strateji Tərəfdaşlıq Haqqında Bəyannaməni qəbul etdiyimiz bir beynəlxalq tədbir çərçivəsində görüşdük. Bir sözlə, həmin görüş əməkdaşlığımızın olduqca mühüm tarixinə çevrildi, çünki münasibətlərimiz daha yüksək səviyyəyə qalxdı. Sonuncu görüşümüzdən bir ildən az vaxtın keçməsinə baxmayaraq, bu gün biz Sədr Si ilə hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatı imzaladıq. Beləliklə, münasibətlərimizi daha yüksək səviyyəyə qaldırdıq" [8].

Prezident müsahibədə bir məqamı xüsusi olaraq qeyd edir ki, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında birgə bəyanatda iki ölkə arasındakı əlaqələrin geniş gündəliyi öz əksini tapır. Sənəddə milli maraqlarla bağlı məsələlərdə həmrəylik və dostluğun nümayişi isə özlüyündə kifayət qədər əhəmiyyətli, hətta strateji faktordur. Məhz bu dostluq və həmrəyliyin nəticəsidir ki, Azərbaycan və Çin liderləri dövlət səfəri çərçivəsində ölkələrin bir-birinin suverenliyi və ərazi bütövlüyünü qətiyyətlə dəstəklədiklərini bəyan etdilər. Bəyanatın digər hissəsi isə ticarət, daşımalar, xalqlararası əlaqələr, humanitar tərəfdaşlıq kimi çox sayda məsələləri əhatə edir. Beləliklə, birgə bəyanatla Bakı-Pekin strateji əməkdaşlığının gələcək hədəfləri tam şəkildə müəyyənləşdirilir.

Prezident İlham Əliyev: "Bəyanatın imzalanması Azərbaycan üçün həqiqətən mühüm nailiyyətdir. Sizə deyə bilərəm ki, Azərbaycan öz bölgəsində bir çox ölkə ilə və həmçinin bəzi Avropa ölkələri ilə Strateji Tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb, lakin Çin ilə Bəyanat onların daxilində ən güclüsüdür. Məhz buna görə bu sənədin xüsusi vacibliyi bir daha göz qarşısındadır" [6].

Digər vacib məqam, heç şübhəsiz ki, Bakı-Pekin münasibətlərinin dinamik inkişafında liderlər arasındakı şəxsi dostluq və səmimi əlaqələrin də özünəməxsus yeri var. Təsadüfi deyil ki, Çin Xalq Respublikasının Sədri Si Tsinpin Azərbaycan prezidentini Çinin yaxın dostu adlandırır. Elə münasibətlərin real nümunəsi kimi də Çin rəhbərinin xalqımız üçün əlamətdar günlərlə bağlı dövlət başçımıza ünvanladığı təbrik məktubları beynəlxalq platformalarda Azərbaycan dövlətinin mövqeyinə verdiyi dəyər, dost ifadəsinin yalnız sözdə deyil, həm də və ilk növbədə əməldə təsdiqini tapdığına hər hansı şübhə yeri qoymur. Məhz liderlər arasında səmimiyyətə və qarşılıqlı inama söykənən əlaqələr regional sabitlik, təhlükəsizlik və beynəlxalq münasibətlər sahəsində oxşar konsepsiya ortaya qoymağa tam imkan yaradır. Təsadüfi deyil ki, Çin liderini çox təcrübəli dövlət xadimi hesab edən Prezident İlham Əliyev Çinin sürətli inkişafında məhz lider faktorunun həlledici rol oynadığını xüsusilə vurğulayır.

Prezident İlham Əliyev: "Azərbaycan Sədr Sinin inkişaf, təhlükəsizlik və sivilizasiyalar ilə bağlı bir neçə təşəbbüsünə qoşulub. Biz onun mövqeyinə şərikik. "Bir kəmər, bir yol" təşəbbüsünü açıq şəkildə dəstəkləmiş və sonradan qoşulmuş ilk ölkələrdən biri də bizik və öz ölkəmizdə xeyli infrastruktur layihələrini həyata keçirmişik. Həqiqətən, onunla görüşmək hər zaman xoşdur. O, dünyanın ən güclü ölkələrindən birinin rəhbəridir, lakin, eyni zamanda, çox təvazökar, çox mehriban insandır. O, elə bir mühit yaradır ki, siz onunla söhbət edəndə sanki köhnə dostunuzla danışırsınız" [3].

Bakı Pekin əməkdaşlığının bütün sahələrdə inkişafı Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir. 2024-cü ilin noyabrında respublikamızda keçirilən COP29 iqlim konfransında Çin Xalq Respublikasının yüksək səviyyədə təmsil olunması, Azərbaycanın irəli sürdüyü 14 qlobal təşəbbüsə dəstək ifadə etməsi təmaslar üçün yeni əməkdaşlıq hədəflərinin formalaşdığı anlamına gəlir. Çünki hazırda hər iki ölkə qlobal iqlim katalizmləri ilə mübarizədə, qlobal cənub məsələsində prinsipial mövqe ifadə edir və bu mövqe digər dünya ölkələri üçün də nümunə sayılmalıdır.

Prezident İlham Əliyev: "Azərbaycan Qlobal Cənubun fəal üzvüdür. Biz bunu yalnız Qoşulmama Hərəkatındakı sədrliyimizlə deyil, həmçinin COP29-dakı sədrliyimiz zamanı nümayiş etdirdik. Azərbaycan COP29 konfransına ev sahibliyi etdi. Orada şəxsən mən Qlobal Cənubun maraqlarını müdafiə etdim və iqlim dəyişikliyi ilə əlaqədar Qlobal Cənuba aid bəzi dövlətlərin mövcudluğuna olan təhlükələrlə bağlı narahatlığı ifadə etdim. Biz Azərbaycanda Çini Qlobal Cənubun lideri hesab edirik və burada bu prinsiplər əsasında ölkələrin birləşdirilməsi baxımından Çin xüsusi rol oynayır" [10].

Hazırda iki ölkə arasında iqtisadi, ticari əlaqələrin böyük potensialı var və həm Bakı, həm də Pekin bu əlaqələri keyfiyyətcə yeni məzmunla zənginləşdirməkdə maraqlıdır.

Statistikaya görə Azərbaycan və Çin arasında

- Əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artdı və 3,744 milyard dollar təşkil etdi;
- Çin Azərbaycanın 4 ən böyük ticarət tərəfdaşına çevrildi;
- Xarici ticarət dövriyyəmizdə Çinin payı 7,9 faiz oldu;
- Hazırda Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i aktiv fəaliyyət göstərir;
- Çin 17,69 faizlə Azərbaycanın idxal üzrə tərəfdaşı kimi lider mövqeyinə sahibdir.

Xüsusi olaraq qeyd edək ki, bu ilin yanvar, fevral ayları üçün ticarət dövriyyəsi nə az, nə çox 745,4 milyon dollara bərabər olub. Belə bir iqtisadi dinamika müşahidə edilsə də, tərəflər hələlik reallaşdırılmayan böyük potensialın olduğunu deyirlər. Çinin Pekin, Şanxay, Urumçi, Çendu, Sindao və digər şəhərlərində Azərbaycanın ticarət və şərab evlərinin fəaliyyət göstərməsi biznes əlaqələri və ixraca istiqamətlənmiş brend məhsullarının müəyyənləşdirilməsində mühüm rol oynaya bilər ki, bu da ikitərəfli ticari münasibətlərin inkişafına önəmli töhfə deməkdir. Yeri gəlmişkən, Prezidentin Çin televiziyasına müsahibəsi zamanı maraqlı bir məqam yaşandı. Televiziya aparıcısı dövlət başçımızı Azərbaycan çayına qonaq etdi və tərəflər arasında belə bir maraqlı dialoq yaşandı.

**Müxbir Lyu Sinin və** Prezident İlham Əliyev müsahibə zamanı dioloqu:

- Bilirsiniz, cənab Prezident, biz danışırıq və mən sanki susamışam, yanımızda çay var.
- Bilirəm nəyi nəzərdə tutursunuz.
- Bayaqdan ona baxıram. Sizin şərəfinizə.
- Sizin şərəfinizə.
- Həqiqətən də ləzizdir. İlk dəfədir ki, Azərbaycan çayının dadına baxıram.
- Doğrudan?
- Bəli. Stəkan çox gözəldir. Bunun nə olduğunu bilmək istəyirəm.

- Bəli, bu, milli stəkandır. Bilirsiniz, onun forması, zənnimcə, armuda bənzəyir. Beləliklə, stəkanın forması, əslində, çayın isti qalması üçün nəzərdə tutulub, çünki adətən biz çayı çox qaynar içirik.

- Çox qaynar, anladım.

- Beləliklə, çay soyumur. Stəkanın bu forması aşağı hissəni qaynar saxlayır.

- Anladım. Əlbəttə ki, bu forma dada əlavə rəng qatır.

- Lakin mən Çində çayın o qədər də qaynar verilmədiyini görmüşəm. Bu, elədir?

- Bizdə də çay çox qaynar verilir. Ola bilsin ki, Siz qonaq olduğunuz üçün onlar Sizə zərər dəyməsin deyə çayı qaynar vermirlər. Çünki çox nəzakətli və ehtiyatlı davranırlar. Lakin çay nöqteyi-nəzərindən bizim çoxlu oxşarlıqlarımız var. Məsələn, hamımız çay içməyi sevirik, lakin fərqli bir təamlarla. Bu da bizi bir çox məsələlərə gətirib çıxarır [1].

Hər iki xalq bir birinin mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaqda maraqlıdır. Bu marağın təminində, şübhəsiz viza rejiminin aradan qaldırılması və turizm sektorunun inkişafı özünəməxsus rol oynayacaq. Tərəflər aviareyslərin sayının artırılması ətrafında artıq müzakirələr aparır və ilkin versiyaya görə həftədə 6-7 aviareysin həyata keçirilməsi mümkün görünür. Elə son statistik rəqəmlərə görə, hər il 150 milyon çinli xaricə səfər edir. Onların yalnız bir faiznin Azərbaycanı seçməsi ölkəmizə gələn turistlərin sayının dəfələrlə artmasına gətirib çıxaracaq.

Prezident İlham Əliyev: "Biz turizm sektorumuzu inkişaf etdirmək istəyirik. Bizim coğrafi üstünlüklərimiz var - Xəzər dənizi, xizək kurortları, meşələr və çaylar və hətta yarımsəhra ərazimiz var. Ona görə də hər kəs zövq almaq üçün bir məkan tapa bilər. Bundan əlavə, çox yaxşı mətbəximiz, qonaqpərvər insanlarımız var. Sadəcə olaraq bizim özümüzü təqdim etməyə, ölkənin təqdimatını etməyə və sözsüz ki, dost ölkələrlə viza rejimini aradan qaldırmağa ehtiyacımız var. Bu gün həqiqətən də tarixi gündür və Azərbaycan vətəndaşları üçün çox yaxşı xəbərdir, çünki onlar sadəcə olaraq bilet alıb Çinə gələ bilərlər" [5].

Heç də təsadüfi deyil ki, dövlət başçısı müsahibədə turizm məkanı kimi məhz Azərbaycanın seçilməsini məntiqli edən bəzi rəqəmləri də diqqətə çatdırdı. Belə ki, bu gün ölkəmizin xarici borcu ümumi daxili məhsulun 7 faizindən azdır. Azərbaycanın mübadilə olunan valyuta ehtiyatları isə xarici borcdan 14 dəfə çoxdur. İşsizlik, yoxsulluq səviyyəsi beş faiz təşkil edir, iqtisadiyyat getdikcə şaxələndirilir. Üstəlik, rəsmi Bakı Yaşıl gündəliklə bağlı prioritetlərə də xüsusi önəm verir. Çin məhz bu məsələdə mühüm rol oynaya bilər. Çünki Azərbaycanda quraşdırılmış günəş panelləri Çində istehsal olunur. Beləliklə, siyasətdən tutmuş bağlantı və daşınma layihələrinə qədər bir çox sahələr üzrə qarşılıqlı fəaliyyətin əksini tapdığı birgə bəyannamə təmasların yeni mərhələyə daşınmasında heç şübhəsiz ki, mühüm və strateji rol oynayacaq.

Prezident İlham Əliyev: "Bu vaxtadək Çin şirkətləri investorlarla, Azərbaycanın yaşıl enerjisinə sərmayə yatıran şirkətlərlə podratçı qismində çalışırdılar. Hələ ki, bizim imzaladığımız və icra fazasında olan müqavilələr bizə 2030-cu ilə qədər 6500 meqavat bərpaolunan enerji verəcək. Sadəcə, müqayisə üçün deyim ki, Azərbaycanın ümumi quraşdırılmış gücü 8 min meqavat təşkil edir. Beləliklə, beş ildən sonra biz demək olar ki, elektrik enerjisinin bugünkü tutumunu iki dəfə artırmış olacağıq - 6 min meqavat Günəş və elektrik enerjisindən əldə olunacaq, 500 meqavat hidroelektrik stansiyalarından gələcək" [11].

Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin sədri Sonq Hailianq ilə görüşündə məhz yaşıl enerji layihələri diqqət mərkəzində oldu. Qeyd edək ki, fəaliyyət dairəsinə bərpa olunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər daxil olan şirkət Çinin bərpa olunan enerji bazasının nə az, nə çox- 50 faizinə nəzarət edir. Şirkət Xəzər dəni-

zində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. "China Energy Engineering Corporation Limited" Füzuli rayonunda Günəş enerjisi və digər layihələrə investisiya yatırır [4].

Dövlət səfəri çərçivəsində imzalanan birgə bəyanatda Azərbaycan Çin əlaqələrinin digər strateji istiqamətinə-mühüm fəaliyyət sektoruna toxunuldu. Bu sektor iki ölkənin mövcud müqavilə hüquqi bazası çərçivəsində qarşılıqlı tələbə mübadiləsi, eləcə də Azərbaycan və Çin dillərinin tədrisidir. Təbii ki, Çin və Azərbaycan dillərinin dövlət müəssisələrində tədrisi müəllimlər arasında mübadilə və mütəxəssislər hazırlanması müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəliliyinə imkan yaradacaq. İki xalqın yaxınlaşması və qarşılıqlı mədəni zənginləşməsinə birbaşa xidmət edəcək.

Prezident İlham Əliyev: "Azərbaycandan daha çox sayda tələbənin buraya gəlməsi üçün böyük imkan var. Həmçinin, zənnimcə, Azərbaycanda Çin-Azərbaycan Universitetinin yaradılması barədə düşünmək yaxşı fikir olar. Hazırda biz bu imkanın dəyərləndirilməsi mərhələsindəyik. Lakin sözsüz ki, insanlar nə qədər çox səyahət edirlərsə, mədəniyyət, xalq barədə nə qədər çox bilirlərsə, ölkələr arasında əlaqələr bir o qədər də daha sıx olur" [4].

Prezident İlham Əliyev sözügedən mövzuda Sinxua agentliyinə müsahibəsində isə bunları bildirdi: "Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb. İki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır" [9].

Eləcə də Azərbaycan və Çin arasında strateji əlaqələrin ən vacib istiqamətlərindən biri də, əlbəttə ki, beynəlxalq fəaliyyətdir. Hazırda Bakı və Pekin Birləşmiş Millətlər Təşkilatı Şanxay Əməkdaşlıq Təşkilatı bir sıra digər regional təşkilatlar və platformalar çərçivəsində konstruktiv əlaqələr qurublar. Məlumdur ki, Çin Şanxay Əməkdaşlıq Təşkilatının təsisçi ölkələrindən biridir və onun inkişafında böyük pay sahibidir. Azərbaycan və Çinin sıx ikitərəfli fəaliyyəti sözügedən birlik çərçivəsində də əməkdaşlığın dərinləşməsi və qurumun statusunun yüksəlməsində səmərəli rol oynayır. Çünki Azərbaycan regionda etibarlı tərəfdaş kimi beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar edilməsinə töhfələr verir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş çoxsaylı addımlar atır.

Prezident İlham Əliyev: "Bizim təşkilatla yaxınlığımız həm təşkilat, həm də Azərbaycan üçün faydalı olar. Çünki biz Xəzərin qərb sahilində yerləşən ölkəyik. Eyni zamanda, Azərbaycan güclü siyasi münasibətlərə və nəqliyyat layihələrinə malik Cənubi Qafqaz ölkəsidir. Çinlə strateji tərəfdaş olmağımız Şanxay Əməkdaşlıq Təşkilatının çətiri altında əməkdaşlığımız baxımından bizə bir çox imkanlar açır" [12].

Bakı Çinin təşəbbüskarı olduğu qlobal nəqliyyat layihələrinin əsas dəstəkvericilərindən biridir. Məsələn, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Asiya nəhəngi ilə əlaqələr strateji önəm daşıyır və Azərbaycan bu istiqamətdə praktik addımlar atır. Konkret uğurlar da var. Belə ki, ərazimizdən yük axınının kəskin artdığını nəzərə alsaq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirmək, müasir infrastruktur yaratmaq və onların ötürücülük qabiliyyətini artırmaq üçün həmin sahəyə əlavə investisiyalar qoyulur və bundan sonra da qoyulacaq.

- Son 20 ildə ölkəmizdə 21min kilometr avtomobil yolları salınıb və təmir edilib;
- 335 körpü və yol ayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib;
- 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometrlik sahə təmir edilib.

Bakı Tbilisi Qars dəmir yolu, Şimal Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi və Transxəzər Beynəlxalq nəqliyyat marşrutu, yəni orta dəhliz, həmçinin Xəzərdə ən iri limanlardan olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarını reallaşdırmaq üçün yeni perspektivlər açır.

Prezident İlham Əliyev: "Kəmər və yol layihəsinə gəlincə, bizim üçün bu təşəbbüs yalnız bir tranzit marşrutu deyil. Biz bu marşrut üzərində şirkətlər qurmaq istəyirik, çünki coğrafi mövqeyimiz əlverişlidir, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşirik. Bağlantılara gəlincə, biz artıq bütün infrastrukturu - dəmir yollarını, dəniz limanlarını, magistral yolları, 8 beynəlxalq hava limanı inşa etmişik. Biz qlobal miqyasda ən böyük yükdaşıma, hava yolu ilə yükdaşıma şirkətlərindən birinə sahibik. Beləliklə, hədəfimiz bu marşrut üzərində biznes qurmaqdır" [2].

Astanada imzalanan bəyannamə və Pekində qəbul edilən birgə bəyanatla Çinin strateji tərəfdaşına çevrilən Azərbaycan artıq regionda tək enerji ixracatçısı yox, həm də qitələrarası nəqliyyat qovşağı kimi tanınır. Çinin beynəlxalq iqtisadi proseslərdə artan rolu onun etibarlı tərəfdaşlarla yaxın əlaqələr qurmasını zərurətə çevirir. Statistikaya görə, 2023-cü ildə Çinin ümumdaxili məhsulu təxminən 18 trilyon dollar təşkil edib və o, dünyada ikinci ən böyük iqtisadiyyata sahib dövlət olduğunu təsdiqləyib. Sözügedən ölkə Asiya, Avropa və Afrikanı birləşdirən nəhəng ticarət və infrastruktur şəbəkəsi formalaşdırır.

- Çindən Avropaya 12 gün ərzində 7000 kilometr məsafə qət etməklə daşımalar mümkündür;
- Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 700 milyard dolların üzərindədir;
- 2020-ci ildən etibarən Orta Dəhlizlə ayda 2 dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması həyata keçirilir;
- 2020-2024-cü illərdə daşınma həcmi 2,5 dəfə artıb.

Prezident İlham Əliyev: "Biz artıq qonşularımızla birlikdə yüklərin keçidini xeyli asanlaşdırmaq və sürətləndirmək üçün birgə müəssisə yaratmışıq. Məsələn, bu gün nəqliyyat infrastrukturu və həmçinin gömrüyümüzdə idarəetmədə islahatlar, o cümlədən rəqəmsallaşma ilə əlaqədar Çindən Azərbaycan vasitəsilə Qara dənizə yüklərin daşınma müddəti cəmi 10 gündən 12 günədəkdir. Ötən il Çinlə Azərbaycan arasında tranzit daşımalarında 86 faiz artım olub. Bu gün söylədiyim kimi, bu, yalnız başlanğıcdır. Düşünürəm ki, Azərbaycan vasitəsilə nəqliyyat marşrutları həqiqətən də bu gün mövcud olan digər marşrutlar arasında ən təhlükəsiz, ən qısa və ən cəlbedici marşrutlardan biri olacaq" [10].

Hazırda Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı, Çini Xəzər dənizi vasitəsilə birləşdirən etibarlı və təhlükəsiz, eləcə də yüklərin Çindən Avropaya, həmçinin əks istiqamətə daşınmasında ən optimal marşrut sayılır. 2024-cü ildə orta dəhlizlə tranzit daşımaların həcmi 378 min ton olub. Bu 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana orta dəhlizlə 287 marşrut qatarı yola salınıb.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri tək nəqliyyat layihələri ilə bağlı birgə fəaliyyətin əsas meyarlarını müəyyənləşdirmək deyil, həm də digər strateji məqamlarla yadda qaldı. Təbii, liderlərin imzaladıqları birgə bəyana Azərbaycan-Çin əlaqələrinin bütün istiqamətləri üzrə qarşıda duran strateji hədəflərə tam aydınlıq gətirilir. Ancaq iki ölkə və iki xalq arasında münasibətlərin daha dərin kökləri də var, bu, yalnız siyasi yox, həm də humanitar, mədəni sahələri əhatə edir.

## YEKUN NƏTİCƏ

Azərbaycan–Çin münasibətlərinin sistemli analizi göstərir ki, bu strateji tərəfdaşlıq müasir çoxqütblü dünya nizamında yeni diplomatik, iqtisadi və institusional sinerji modelinin formalaşmasına real töhfə verir. 2025-ci ildə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri və səfər çərçivəsində imzalanmış çoxsaylı strateji sənədlər, iki ölkə arasında münasibətlərin

yalnız ikitərəfli əməkdaşlıq formatında deyil, həm də qlobal sistemin arxitekturasında funksional komponent kimi təzahür etdiyini sübut edir. Əldə olunan nəticələr bir daha göstərdi ki, Azərbaycan–Çin münasibətləri sadəcə iqtisadi maraqlar üzərində qurulmamış, eyni zamanda beynəlxalq hüquq, ərazi bütövlüyü və qarşılıqlı suverenliyə hörmət prinsipləri əsasında möhkəmlənmişdir.

Bu tərəfdaşlığın normativ və hüquqi əsaslarını gücləndirən mühüm faktor ondan ibarətdir ki, Azərbaycan "vahid Çin" prinsipini dəstəkləyir, Çin isə Azərbaycanın ərazi bütövlüyü məsələsində birmənalı və ardıcıl mövqe nümayiş etdirir. Bu qarşılıqlı dəstək çoxtərəfli platformalarda – BMT, Şanxay Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində sinxron diplomatik davranış modeli yaradır. Bu isə münasibətlərin qlobal normativ çərçivəyə uyğun şəkildə davam etdirilməsinə və sabitlik yaratmasına şərait yaradır.

Elmi nəticələr göstərir ki, Azərbaycan–Çin əməkdaşlığı yalnız enerji və logistika kimi sahələrdə deyil, həmçinin elm, təhsil, rəqəmsallaşma, əqli mülkiyyət, mədəniyyət və humanitar diplomatiya istiqamətlərində də çoxşaxəli və davamlı şəkildə inkişaf edir. Məsələn, Konfutsi İnstitutunun Azərbaycanda fəaliyyət göstərməsi, qarşılıqlı tələbə mübadiləsi, Çin dilinin Azərbaycanda, Azərbaycan dilinin isə Çində tədris olunması, qarşılıqlı mədəniyyətlərin yaxınlaşmasına töhfə verir. Bu aspektlər həm xalqlararası təmasların dərinləşməsinə, həm də diplomatik münasibətlərin dayanıqlı sosial-mədəni baza üzərində qurulmasına imkan yaradır.

Qlobal təhlükəsizlik və enerji təhlükəsizliyi sahəsində isə Azərbaycan–Çin əməkdaşlığı özünü xüsusilə effektiv model kimi göstərir. Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) və Bakı-Tbilisi-Qars dəmir yolu xətti, “Bir kəmər, bir yol” təşəbbüsünə inteqrasiya olunmaqla, Çindən Avropaya uzanan ticarət yollarının əsas halqasına çevrilmişdir. Bu infrastruktur həm Çinin qlobal bazarlara çıxışını asanlaşdırır, həm də Azərbaycanın regional nəqliyyat-logistika mərkəzinə çevrilməsi ilə nəticələnir. Bu baxımdan, iki ölkənin maraqları arasında ciddi uyğunluq və funksional sinerji müşahidə olunur.

Yaşıl enerji sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan 2030-cu ilə qədər 6500 MVt bərpa olunan enerji tutumu yaratmaq niyyətindədir və bu prosesdə Çin şirkətləri – xüsusilə “China Energy Engineering Corporation Limited” – mühüm investor və texnoloji tərəfdaş kimi çıxış edir. Beləliklə, iki ölkənin strateji tərəfdaşlığı yalnız ənənəvi enerji sektoru ilə məhdudlaşmır, həm də innovativ texnologiyalar və ekoloji transformasiya sahələrində davamlı əməkdaşlıq platformasına çevrilir.

Məqalədəki təhlil bir daha təsdiq edir ki, Azərbaycan Prezidentinin Çinə səfəri nəticəsində qəbul olunan “Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat” ikitərəfli münasibətlərin institusional konfiqurasiyasını dəyişmiş və onları yeni keyfiyyət mərhələsinə yüksəltmişdir. Bəyanatda əks olunan 18 əsas istiqamət, o cümlədən siyasi, iqtisadi, humanitar və beynəlxalq əməkdaşlıq sahələrində konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Həmin sənəd qarşılıqlı etimad, suverenliyə hörmət və birgə strateji vizyona əsaslanan münasibətlərin uzunmüddətli, sabit və dayanıqlı xarakter daşıdığını sübut edir.

Bundan başqa, Çin lideri Si Tsinpinin Azərbaycanın regional və qlobal təşəbbüslərinə verdiyi dəstək, Prezident İlham Əliyevin COP29 çərçivəsində Qlobal Cənubun maraqlarını müdafiə etməsi ilə üst-üstə düşür. Bu isə onu göstərir ki, iki ölkə yalnız milli maraqları deyil, həm də qlobal humanitar və ekoloji məsuliyyətləri paylaşır. Azərbaycanın beynəlxalq təşəbbüslərinin artıq qlobal gündəliyin bir hissəsinə çevrilməsi, bu tərəfdaşlığı daha da aktuallaşdırır və ona beynəlxalq sistemdə xüsusi yer qazandırır.

Siyasi liderlər arasında formalaşmış yüksək səviyyəli şəxsi münasibətlər də strateji əməkdaşlığın əsas sütunlarından birinə çevrilmişdir. Si Tsinpinin Prezident İlham Əliyevi “Çinin yaxın dostu” adlandırması, münasibətlərin təkcə dövlətlərarası deyil, eyni zamanda şəxsi səmimiyyətə və qarşı-

lıqlı inama əsaslandığını göstərir. Bu da öz növbəsində əməkdaşlıqda çeviklik, etibarlılıq və sürətli koordinasiyanı təmin edir.

Analitik nöqteyi-nəzərdən gəlinən nəticə ondan ibarətdir ki, Azərbaycan–Çin münasibətləri müasir beynəlxalq münasibətlər sistemində yeni "strateji uyğunlaşma modeli" kimi qiymətləndirilə bilər. Bu model müxtəlif geosiyasi bloklara üzv olmayan, lakin güclü regional aktorlar arasında funksional və normativ sinerji yaradan yeni diplomatik yanaşmaların empirik əsasını təşkil edir. Bu münasibətlərin strukturu yalnız razılaşmalar və bəyanatlarla deyil, eyni zamanda konkret infrastruktur layihələri, enerji və texnoloji əməkdaşlıq, humanitar mübadilə, qarşılıqlı investisiyalar və rəqəmsal transformasiya kimi sahələrdə real nəticələrlə müşayiət olunur.

Nəticə etibarilə, Azərbaycan–Çin strateji tərəfdaşlığı beynəlxalq münasibətlər nəzəriyyəsində "post-unipolyar sinerji modeli" adlandırıla biləcək yeni anlayışın əsasını qoyur. Bu modeldə əməkdaşlıq yalnız hərbi və siyasi güc üzərində deyil, qarşılıqlı maraqların və beynəlxalq hüququn aliliyinin təmin olunduğu yeni diplomatik platformalar üzərində qurulur. Azərbaycan bu modeldə həm tranzit aktor, həm siyasi moderator, həm də çoxtərəfli diplomatiyada aktiv və balanslaşdırıcı subyekt rolunu oynayır.

Bu nəticələr əsasında demək olar ki, Azərbaycan–Çin münasibətləri XXI əsrin çoxtərəfli dünya nizamında yeni beynəlxalq davranış kodlarının, strateji tərəfdaşlıq standartlarının və institusional diplomatiya modellərinin formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyan bir əməkdaşlıq çərçivəsidir. Bu çərçivənin uğuru, bir tərəfdən Azərbaycanın praqmatik və çevik diplomatiyasının nəticəsi, digər tərəfdən isə Çinin qlobal iqtisadi-siyasi sistemə inteqrasiya olunmuş inkişaf strategiyasının məhsuludur.

Beləliklə, Azərbaycan Prezidentinin Çin Xalq Respublikasına dövlət səfərinin nəticələri əsasında bəzi mühüm qənaətlərə gəlmək olar. Səfər göstərdi ki:

1. Ölkəmiz geniş coğrafiyada böyük nüfuz sahibidir. Qlobal oyunçudur və Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərə artıq hər kəs qlobal təşəbbüslər kimi yanaşır.
2. Əgər Çin Xalq Respublikasının lideri Si Tsinpin öz çıxışında, Çin Azərbaycanla birlikdə BMT nin mərkəzi rolunu nəzərə almaqla beynəlxalq sistemi, dünya nizamını və beynəlxalq ədaləti müdafiə etməyə hazırdır deyirsə, bu, birbaşa Azərbaycan liderinin şəxsiyyətinə və ölkəmizin roluna verilən dəyəri ifadə edir.
3. Azərbaycan Çin dövləti ilə hərtərəfli strateji tərəfdaşlıq əlaqələri quran ikinci postsovet ölkəsidir. Yalnız Rusiya Pekinlə belə bir sənədə imza atıb.

Bütün bunlar Azərbaycanın artıq yeni dünya düzəninin qurulmasına töhfələr verən ölkə kimi tanındığı və qiymətləndirildiyi anlamına gəlir. Təkcə aprel ayı ərzində Almaniya və Gürcüstan prezidentlərinin Bakıya, dövlət başçımızın Çinə səfərləri tam təsdiqləyir ki, Azərbaycan regional və qlobal məsələlərdə nüfuzunu, Qafqaz və Xəzər dənizi bölgələrində aparıcı oyunçu statusunu getdikcə daha da gücləndirir.

## ƏDƏBİYYAT


1. APA.az. // Prezident İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibə verib//2025//
https://apa.az/resmi-xeber/prezident-ilham-eliyev-pekinde-cinin-cgtn-telekanalina-musahibe-verib-yenilenib-897343?locale=az

2. Baku.ws. // Prezident: "Çin bazarında daha çox payımızın olmasını istəyirik"//2025//
https://baku.ws/politics/prezident-cin-bazarinda-daha-cox-payimizin-olmasini-isteyirik

3. Lent.az. İlham Əliyev Çinin CGTN telekanalına müsahibə verdi//2025//
https: lent.az/xeber/siyaset/ilham-eliyev-cinin-cgtn-telekanalina-musahibe-verdi-40635200

4. Xalq qəzeti//Asiya nəhəngi Odlar yurdu ilə ən yüksək səviyyəli tərəfdaşlıq qurur// № 82//s.1//2025//

https://xalqqazeti.az/uploads/pdf-files/150793/xalqqazeti-25.04.2025.pdf

5. Kərimli A. //Prezident İlham Əliyevin Çinə dövlət səfəri iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə təkan verəcək//2025//
https://aia.az/104924-prezident-ilham-eliyevin-cine-dovlet-seferi-iki-olke-arasinda-munasibetlerin-daha-da-mokemlenmesine-tekan-verecek.html

6. Moderin.az. //Azərbaycan "Vahid Çin" siyasətini qətiyyətlə dəstəkləyir//2025//
https://modern.az/aktual/515260/azerbaycan-ldquovahid-chinrdquo-siyasetini-qetiyyetle-destekleyir/

7. Prezident.az. //Astanada "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub// 2024//
https://president.az/az/articles/view/66389

8. Prezident.az//İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibə verib//2025//
https://president.az/az/articles/view/68664

9. Prezident.az// İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibə verib //2025//
https://president.az/az/articles/view/68627

10. Report.az. // Prezident: Azərbaycanda Çini Qlobal Cənubun lideri hesab edirik//2025//
https://report.az/xarici-siyaset/prezident-azerbaycanda-cini-qlobal-cenubun-lideri-hesab-edirik/

11. Trend.az. // Prezident İlham Əliyev: Azərbaycan ilə Çinin bərpaolunan enerji resursları ilə bağlı ikitərəfli əlaqələr istiqamətində işləmək üçün həqiqətən də nadir fürsəti var//2025//
https://az.trend.az/azerbaijan/politics/4036136.html

12. Turkic.world/az.// Prezident İlham Əliyev: Bizim ŞƏT ilə yaxınlığımız həm təşkilat, həm də Azərbaycan üçün faydalı olar//2025//
https://turkic.world/az/articles/official_chronicle/361214

13. Zeynalova A. // Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı Üçün Etibarlı Tərəfdaşdır// Akademik Tarih ve Düşünce Dergisi// №11(1) //s.1-13 //2024//
https://dergipark.org.tr/tr/download/article-file/4438365

## AZERBAIJAN–CHINA GEOPOLITICS IN THE MULTIPOLAR WORLD ORDER

**A.A. Zeynalova**

This article analyzes the functional role of the existing strategic partnership between Azerbaijan and China within the multipolar system of international relations. The analysis is carried out through the examination of President Ilham Aliyev's state visit to China in 2025 and the significant strategic documents signed during this visit. The scientific findings demonstrate that Azerbaijan–China relations have already gone beyond the framework of bilateral cooperation, transforming into a model with institutional and normative significance in the global balance of power. The novelty of the article lies in the fact that, for the first time, these relations are interpreted as a model of multilateral adaptation that generates synergy. In terms of practical relevance, these relations establish a sustainable cooperation platform in areas such as energy security, transport and logistics, renewable energy, humanitarian diplomacy, and the supremacy of international law. The mutual support of territorial integrity by China and Azerbaijan, as well as their alignment in multilateral diplomacy, constitutes the main pillar ensuring the depth and stability of these relations.

**Keywords:** *Multipolarity, world order, Joint Declaration, China, Azerbaijan*

# АЗЕРБАЙДЖАНО-КИТАЙСКАЯ ГЕОПОЛИТИКА В УСЛОВИЯХ МНОГОПОЛЯРНОГО МИРОВОГО ПОРЯДКА

**А.А. Зейналова**

В данной статье анализируется функциональная роль существующего стратегического партнёрства между Азербайджаном и Китаем в многополярной системе международных отношений. Анализ основан на государственном визите Президента Ильхама Алиева в Китай в 2025 году и изучении важных стратегических документов, подписанных в ходе данного визита. Научные выводы показывают, что азербайджано-китайские отношения уже вышли за рамки двустороннего сотрудничества, превратившись в модель, обладающую институциональным и нормативным значением в глобальном балансе сил. Научная новизна статьи заключается в том, что впервые данные отношения интерпретируются как модель многосторонней адаптации, создающей синергию. С прикладной точки зрения эти отношения формируют устойчивую платформу сотрудничества в таких сферах, как энергетическая безопасность, транспорт и логистика, возобновляемая энергетика, гуманитарная дипломатия и верховенство международного права. Взаимная поддержка территориальной целостности со стороны Китая и Азербайджана, а также совпадение их позиций в многосторонней дипломатии составляют основную опору, обеспечивающую глубину и стабильность этих связей.

**Ключевые слова:** *многополярность, мировой порядок, Совместная декларация, Китай, Азербайджан*